**Valideyn himayəsindən məhrum olan və övladlığa götürülən uşaqların uçot Qaydaları, uşaqları övladlığa götürməyi arzu edən şəxslərin uçot Qaydası və Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların övladlığa götürülməsini arzu edən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçot**

**Qaydası**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 20 sentyabr tarixli, 172 nömrəli qərarı ilə təsdiq edilmişdir**

## I. Ümumi müddəalar

Bu Qaydalar valideyn himayəsindən məhrum olan uşaqların ailə tərbiyəsinə (övladlığa, qəyyumluğa, himayəyə və ya himayədar ailəyə), bu imkanlar olmadıqda isə valideyn himayəsindən məhrum olan və ya yetim uşaqlar üçün nəzərdə tutulmuş tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi müəssisələrinə və digər analoji müəssisələrə verilməsi məqsədi ilə mərkəzləşdirilmiş uçotunun, övladlığa götürülən uşaqların saxlanması, tərbiyəsi və təhsili şəraitinə nəzarəti həyata keçirmək məqsədi ilə övladlığa götürülən uşaqların mərkəzləşdirilmiş uçotunun, habelə uşaqları övladlığa götürməyi arzu edən şəxslərin və Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların övladlığa götürülməsini arzu edən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçotunun aparılması qaydalarını müəyyən edir.

II. Valideyn hİmayəsİndən məhrum olan uşaqların uçot qaydaları

1.1. Valideyn himayəsindən məhrum olan uşaqların ilkin uçotunu yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları (bundan sonra—qəyyumluq və himayə orqanları), mərkəzləşdirilmiş uçotunu 3 yaşına qədər uşaqlar üzrə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, 3 yaşdan yuxarı uşaqlar üzrə isə Azərbaycan Respublikasının Təhsil Nazirliyi, ümumi uçotunu isə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi həyata keçirir.

1.2. Valideyn himayəsindən məhrum olan uşaqların ilkin uçotunu uşağın faktiki olduğu yerin qəyyumluq və himayə orqanları həyata keçirirlər.

1.3. Valideyn himayəsindən məhrum olan uşaqlar haqqında məlumatlara malik doğum evləri məktəbəqədər, ümumtəhsil, müalicə və digər müəssisələrin vəzifəli şəxsləri və başqa vətəndaşlar bu məlumatları qəyyumluq və himayə orqanına verməyə borcludurlar.

1.4. Qəyyumluq və himayə orqanları valideyn himayəsindən məhrum olan uşaqlar haqqında məlumatları aldıqdan sonra 3 gün müddətində uşağın həyat şəraiti, valideynləri və yaxın qohumlarının himayəsindən məhrum olma faktını dəqiqləşdirir və bu məlumatları forması 1 nömrəli əlavədə müəyyən olunan valideyn himayəsindən məhrum olan uşaqların ilkin uçot kitabında qeyd edir.

1.5. Valideyn himayəsindən məhrum olan və övladlığa götürülən uşaqların yerləşdiyi tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi və digər analoji müəssisələrin rəhbərləri həmin uşaqların tərbiyə olunmaq üçün ailəyə verilməsinin mümkün olduğunu bildikdə, 7 gün müddətində qəyyumluq və himayə orqanına bu barədə məlumat verməyə borcludurlar.

1.6. Qəyyumluq və himayə orqanları tərəfindən uşaq haqqında məlumatlar alındıqdan sonra 1 ay ərzində uşağın yerləşdirilməsinin təmin edilməsi mümkün olmadıqda, həmin uşaq haqqında sənədlər forması 2 nömrəli əlavədə müəyyən olunmuş və qəyyumluq və himayə orqanları tərəfindən doldurulmuş valideyn himayəsindən məhrum olan uşaqların məlumat vərəqəsi ilə birlikdə mərkəzləşdirilmiş uçota alınmaq üçün Azərbaycan Respublikasının Təhsil Nazirliyinə və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə, ümumi uçota alınması üçün isə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə göndərilir. Valideyn himayəsindən məhrum olan uşağın məlumat vərəqəsinin bir nüsxəsi qəyyumluq və himayə orqanında saxlanılır.

1.7. Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi qəyyumluq və himayə orqanlarından daxil olan məlumatları forması 3 nömrəli əlavədə müəyyən edilmiş valideyn himayəsindən məhrum olan uşaqların mərkəzləşdirilmiş uçot kitabında qeyd edirlər, ümumi uçota alınmaq üçün Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə təqdim edirlər və bu məlumatların əsasında valideyn himayəsindən məhrum uşaqlar haqqında məlumatlar toplusunu formalaşdırırlar. Bundan sonra uşaqların tərbiyə olunmaq üçün ailələrdə yerləşdirilməsinə yardım edirlər, tərbiyə etmək üçün götürmək istəyən şəxslər üçün uşaq seçirlər, uşağın övladlığa götürülməsi məsələsinin qanunvericilikdə nəzərdə tutulmuş qaydada həll edilməsi üçün qəyyumluq və himayə orqanına məlumatlar verirlər.

1.8. Valideynlik hüquqları bərpa edildikdə, uşaq övladlığa götürüldükdə və uşaq haqqında məlumatların dəyişdiyi digər hallarda qəyyumluq və himayə orqanları valideyn himayəsindən məhrum uşaqlar haqqında məlumatlarda dəyişikliklərin edilməsi məqsədi ilə son məlumatları Azərbaycan Respublikasının Təhsil Nazirliyinə, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə və Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə verirlər.

1.9. Uşağın ümumi uçota götürülməsi tarixi uşaq haqqında məlumatların valideyn himayəsindən məhrum olan uşaqların ümumi uçot kitabına salındığı tarix sayılır.

Valideyn himayəsindən məhrum olan uşaqların və övladlığa götürülən uşaqların ümumi uçot kitablarının forması Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən müəyyən olunur.

III. Övladlığa götürülən uşaqların uçot qaydaları

2.1. Övladlığa götürülən uşaqların ilkin uçotunu övladlığa götürmə haqqında məhkəmənin qətnaməsinə əsasən yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları, mərkəzləşdirilmiş uçotunu 3 yaşına qədər uşaqlar üzrə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, 3 yaşdan yuxarı uşaqlar üzrə isə Azərbaycan Respublikasının Təhsil Nazirliyi, ümumi uçotunu isə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi həyata keçirir. [10]

2.2. Övladlığa götürülən uşaqların ilkin uçotunu uşağın faktiki olduğu yerin qəyyumluq və himayə orqanları həyata keçirirlər.

2.3. Qəyyumluq və himayə orqanları övladlığa götürülən uşaqlar haqqında məlumatları övladlığa götürülən uşaqların ilkin uçot kitabında qeyd edir. Övladlığa götürülən uşaqların ilkin uçot kitabının hər səhifəsi eyni formalı (4 nömrəli əlavə) iki hissədən ibarətdir. Forma Qəyyumluq və himayə orqanları tərəfindən doldurulduqdan sonra ikinci hissə kəsilərək mərkəzləşdirilmiş uçota alınmaq üçün müvafiq olaraq Azərbaycan Respublikasının Təhsil Nazirliyinə və Azərbaycan

Respublikasının Səhiyyə Nazirliyinə, ümumi uçota alınması üçün isə həmin hissənin surəti Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə göndərilir.

2.4. Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi qəyyumluq və himayə orqanlarından daxil olan məlumatları forması 5 nömrəli əlavədə müəyyən edilmiş övladlığa götürülən uşaqların mərkəzləşdirilmiş uçot kitabında qeyd edirlər, ümumi uçota alınmaq üçün Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə təqdim edirlər.

2.5. Məhkəmə övladlığa götürməni etibarsız hesab etdikdə, övladlığa götürmə məhkəmə tərəfindən ləğv edildikdə, qəyyumluq və himayə orqanları mərkəzləşdirilmiş uçot məlumatlarında dəyişikliklər edilməsi məqsədi ilə son məlumatları Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə göndərirlər və bu barədə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə məlumat verirlər.

IV. Uşaqları övladlığa götürməyi arzu edən şəxslərİn uçot Qaydası və Azərbaycan RespublİkasInın vətəndaşı olan uşaqların övladlığa götürülməsİnİ arzu edən əcnəbİlərİn və vətəndaşlığı olmayan şəxslərİn uçot qaydası

3.1. Uşaqları övladlığa götürməyi arzu edən Azərbaycan Respublikası vətəndaşlarının uçotu onların yaşadığı yerin qəyyumluq və himayə orqanı tərəfindən aparılır.

3.2. Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların övladlığa götürülməsini arzu edən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçotu Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən aparılır.

3.3. Uşaqları övladlığa götürməyi arzu edən şəxs (şəxslər) uçota götürülmə üçün ərizə ilə birlikdə aşağıdakılar barədə məlumatları və sənədləri təqdim etməlidirlər:

şəxsiyyətini təsdiq edən sənədin surəti;

qısa tərcümeyi-hal;

övladlığa götürməyə imkan verməyən xəstəliyinin olmaması barədə tibbi arayış;

ümumi səhhəti barədə tibbi arayış;

yaşayış sahəsi barədə məlumat (yaşayış sahəsinə mülkiyyət hüququnu təsdiqləyən sənəd və s.);

ailə vəziyyəti barədə məlumatlar (nikah haqqında şəhadətnamənin surəti, nikahın pozulması haqqında şəhadətnamənin surəti);

iş yeri (vəzifəsi), əmək haqqı və başqa gəlirləri haqqında məlumat;

övladlığa götürmək istədiyi uşağın xüsusi əlamətləri (yaşı, cinsi, gözlərinin rəngi və s.);

3.4. Uşaqları övladlığa götürməyi arzu edən şəxsin (şəxslərin) uçota götürülmək üçün bu Qaydaların 3.3 bəndində qeyd olunanlar barədə təqdim etdikləri məlumatlar bir il müddətində etibarlıdır.

3.5. Qəyyumluq və himayə orqanı, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi övladlığa götürmənin uşağın mənafeyinə uyğun olmasını öyrənmək məqsədi ilə uşaqları övladlığa götürməyi arzu edən şəxsdən (şəxslərdən) digər sənədləri və məlumatları tələb edə bilər.

3.6. Qəyyumluq və himayə orqanı, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi uşaqları övladlığa götürməyi arzu edən şəxsin (şəxslərin) adını uşaqları övladlığa götürməyi arzu edən şəxslərin uçot kitabına (əlavə olunur) salmaqla uçota götürür.

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu $g 2000.- 30 sentyabr, № 9.- S. 4200-4203.**